BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2009

# JURNALİSTİKA

## TELEVİZİYA JANRLARI ANLAYIŞI VƏ SİSTEMİ

**A.A.HƏSƏNOVA**
***Bakı Dövlət Universiteti***
***aysel.hasanova@press.ans.az***

Sovet mediaşünaslığında publisistika janrları ənənəvi olaraq üç qrupa bölünürdü: 1) İnformasiya janrları, 2) Analitik janrlar, 3) Bədii-publisistik janrlar. Əsasən indi də davam etdirilən bu ənənənin özülü Moskva Dövlət Universitetinin jurnalistika fakültəsində qoyulmuşdu. SSRİ-nin, qismən də başqa sosialist ölkələrinin bütün universitetlərinin jurnalistika fakültələri (şöbələri) həmin bölgünü qəbul etmiş, jurnalistikaya dair ədəbiyyatın hamısında bu təsnifat öz əksini tapmışdı. Bəzi alimlər hələ o vaxt alternativ fikir söyləməyə cəhd göstərsələr də, onların mövqeyi kəskin tənqid olunurdu. Məsələn, sovet dövrünün aparıcı publisistika nəzəriyyəçiləri V.V.Uçyonova (8), Y.P.Proxorov (4), M.S.Çerepaxov (9) jurnalistika janrlarının qruplaşdırılması prinsiplərinə bir qədər başqa cür yanaşırdılar.

Zaman keçdikcə çox şey dəyişilir. 2002-ci ildə nəşr olunmuş «Dövri mətbuatın janrları» adlı dərs vəsaitində (7) korrespondensiya, hesabat və müsahibə həm informasiya janrları (informativ korrespondensiya, informativ hesabat, informativ müsahibə), həm də analitik janrlar (analitik korrespondensiya, analitik hesabat, analitik müsahibə) qrupuna daxil edilmişdir. Eyni qaydada V.V.Smirnov da həmin ildə çapdan çıxmış «Radiojurnalistikanın janrları» kitabında (5) radiomüsahibəni, radiokorrespondensiyanı və radioreportajı hər iki bölməyə daxil etmişdir. Bütün bunlar göstərir ki, jurnalistikada, o cümlədən televiziya jurnalistikasında janr bölgüsünə yeni baxış nümayiş etdirməyin, sovet dönəmində buraxılmış yanlışlıqları demokratiya, söz azadlığı dövrünün imkanlarını nəzərə almaqla tədricən düzəltməyin, praktik jurnalistikanı təcrübədən, həyatdan gələn, daha tez anlaşılan, daha asan qavranılan nəzəri biliklərlə təchiz etməyin vaxtı çatmışdır. Artıq müəyyən işlər görülməkdədir. Əslən Slovakiyadan olan, hazırda Fransada çalışan peşəkar jurnalist T.Repkovanın 2006-cı ildə dilimizə tərcümə edilmiş «Yeni dönəm: demokratik cəmiyyətdə peşəkar qəzet buraxmaq yolları» adlı vəsaiti bu baxımdan diqqəti çəkir. Kitabın 4-cü bölməsində müəllif jurnalistikanın ənənəvi janrlarına tənqidi mövqedən nəzər salmış, müasir

dünya təcrübəsinə əsaslanaraq «jurnalistika janrları» anlayışına yeni gözlə baxmağa çalışmışdır (2, 128-136).

«Televiziya janrları» dedikdə, müəyyən zaman daxilində bütövlükdə televiziya ilə nümayiş etdirilən verilişlərin müəyyən əlamətlərə əsaslanan bölgü vahidləri nəzərdə tutulur. Bunları şərti olaraq iki qrupa bölmək olar: sənədli-publisistik verilişlər, ədəbi-bədii-əyləncəli verilişlər. Birinci qrup bilavasitə jurnalistikanın predmeti kimi çıxış edir. Jurnalistika nəzəriyyəsində bədii-publisistik (sənədli-bədii) janrlar kimi dəyərləndirilən verilişlər tədricən sıradan çıxmaq üzrədir. Bunlardan ikisi (oçerk və zarisovka) sırf Rusiya jurnalistikasına məxsusdur (buna görə adları da xalis rus sözləridir). «Pamflet» və «felyeton» terminləri Qərbi Avropada meydana gəlib və ilkin anlamda onların heç biri janr kimi nəzərdə tutulmayıb. «Pamflet» XVII əsrin əvvəllərində İngiltərədə günün aktual məsələlərinə həsr olunmuş kiçikhəcmli və kiçikformatlı kitabçalara deyilib. «Felyeton» sözünü leksikona fransalı jurnalist Lui Fransua Berten gətirmişdir. Bu söz fransızcadan tərcümədə «kiçik vərəq» deməkdir. Berten 1803-cü ildə özünün «Journal des Debates politiques et literaires» («Siyasətə və ədəbiyyata dair debatlar qəzeti») qəzetinin səhifəsinə kiçik bir vərəq (felyeton) yapışdırmışdı və orada müxtəlif mövzulu, müxtəlif janrlı yazılar dərc edirdi. Qərb mətbuatında qəzet səhifəsinin aşağı hissəsində («podvalda») verilən yazılar indi də «felyeton» adlandırılır. Hətta Rusiyanın özündə də vaxtilə bu sözün janr mənasında işlədilməsinə etiraz edən qələm sahibləri olmuşdur. Məsələn, tanınmış jurnalist Mixail Koltsov 1936-cı ildə redaktorların müşavirəsində çıxış edərkən demişdi: «Felyeton oçerk, satira, yol qeydləri, şeir... şəklində verilə bilər» (3, 353).

50-ci illərin sovet ənənəsini davam etdirən müasir Rusiya televiziyaşünaslığında da janr bölgüsü eyni qaydada (mətbuatda olduğu kimi) aparılır, yəni burada da üç cür janrlar qrupunun olduğu təsdiqlənir: informasiya publisistikası janrları; analitik publisistika janrları; bədii publisistika janrları (6, 176-215). Birinci qrupa xəbər (videosüjet), hesabat, çıxış, müsahibə, reportaj; ikinci qrupa şərh, icmal, söhbət; üçüncü qrupa isə deyildiyi kimi, oçerk, zarisovka, felyeton, pamflet daxil edilir. Burada həm qruplar, həm də həmin qruplara daxil edilən janrlar müxtəlif əsaslara (əlamətlərə) görə növlərə bölündüyündən belə təsnifatı qeyd-şərtsiz qəbul etmək mümkün deyil.

Televiziya kommunikatorunun (jurnalistin, rejissorun, operatorun və başqa yaradıcı əməkdaşların) başlıca vəzifəsi auditoriyanı audiovizual informasiya, yəni televiziyanın özəlliklərindən istifadə etməklə ölkədə və dünyada baş verən, tamaşaçılar üçün önəmli olan real fakt və hadisələrlə tanış etməkdir. Həyat hadisələri sadə, orta və mürəkkəb olmaqla üç yerə bölünür. Bizə belə gəlir ki, televiziya verilişlərini də janr qrupları üzrə deyil, təsvir olunan hadisələrin mürəkkəblik dərəcəsinə və jurnalistin həmin hadisələrə münasibətinə görə təsnifləşdirmək daha məqsədəuyğundur: *bilgi proqramları* (operativlik tələb edən sadə hadisələr), *şərh proqramları* (təhlil tələb edən orta hadisələr), *araşdırma proqramları* (axtarış, dəqiqləşdirmə tələb edən mürəkkəb hadisələr).

Bilgi proqramlarında heç bir şərh və araşdırmaya yol verilmir, ən yaxın keçmişdə baş vermiş, yaxud hazırda baş verməkdə olan hadisələr haqqında tamaşaçılara operativ məlumat çatdırılır. Burada əsas sima reportyorlar və operatorlardır. Bu halda hadisənin vizual təsviri (opera-

tor) ilə paralel olaraq onun haqqında tam təsəvvür yaradacaq qədər sualın (nə vaxt, harada, kim, nə üçün, nə etmişdir) cavabından ibarət olan qısa verbal (reportyor) məlumat verilir. Bu proqramlarda televiziya şəffaf şüşə kimi hadisə ilə tamaşaçı arasında birbaşa əlaqə yaradır. Belə verilişlərdə müəllif obrazı yox dərəcəsindədir, o yalnız faktların seçilməsində və təqdimatında iştirak edir. Buraya televiziyaların gündə bir neçə dəfə efirə çıxan xəbər proqramlarının süjetləri daxildir.

Şərh proqramları müəyyən zaman kəsiyində, tutaq ki, bir həftə, bir ay, bir mövsüm, bəzən hətta bir il ərzində baş vermiş hadisələrə qayıdışdır. Həmin hadisələrin bir qismi haqqında tamaşaçılar gündəlik xəbər proqramları vasitəsilə bilgiləndiriliblər, indi isə kommunikator (şərhçi jurnalist, yaxud həmin sahənin mütəxəssisi) onların mahiyyətinə varır, hadisənin qaranlıq qalmış tərəflərinə işıq salır, müəyyən mötəbər qaynaqların verdiyi, azı iki müstəqil mənbədən alınmış, şəxsən yoxlanılmış bilgilərlə auditoriyanın təsəvvürünü bütövləşdirir. İctimai həyatın ayrı-ayrı sahələrindən (iqtisadiyyat, siyasət, mədəniyyət) bəhs edən verilişlər də şərh proqramlarına aid edilə bilər. Bu proqramlarda çalışan jurnalistlər ayrı-ayrı sahələr üzrə ixtisaslaşmış olurlar. «Onlar siyasətçi ilə siyasətçi, sənətkarla sənətkar, həkimlə həkim, biznesmenlə biznesmen, idmançı ilə idmançı kimi, bir sözlə, hamı ilə öz dilində danışsalar da, nə siyasətçidirlər, nə sənətkar, nə həkim, nə biznesmen, nə də idmançı. Onlar, sadəcə, ixtisaslaşmış jurnalistlərdir...» (1, 151). Başqa sözlə, şərh proqramlarında jurnalist reportyorluqdan uzaqlaşıb (reportyorun hadisəyə şərh vermək səlahiyyəti yoxdur) həmin sahənin mütəxəssisi statusuna yaxınlaşır. Şərh proqramlarını hökmən jurnalistin aparması məcburi deyil, bu işi jurnalistikaya və televiziyanın özəlliklərinə bələd olan ayrı-ayrı sahələrin mütəxəssisləri də görə bilərlər. Şərh proqramlarına misal olaraq həftənin sonunda verilən analitik verilişləri göstərmək olar.

Araşdırma proqramları az öyrənilmiş, qapalı, gizlədilən həqiqətin (faktın) hərtərəfli və bütün təfsilatı ilə açılmasıdır. Bu növ proqramlardan istifadə edilməsi bizim kimi demokratiyaya keçid rejimində yaşayan ölkələr üçün qaçılmaz zərurətdir, çünki bu ölkələrdə keçmiş dönəmin nisgili ilə yaşayan mühafizəkar siyasi partiyalar, bəzi hökumət məmurları və bir sıra başqa şəxslər korrupsiya və rüşvətxorluqla məşğul olduqları üçün baş verən olayların əsas səbəbini gizlətməyə, həqiqət axtaran insanların, ilk növbədə jurnalistlərin işini çətinləşdirməyə çalışırlar. İndi inkişaf etmiş ölkələrdə də vaxtilə belə olub. Təsadüfi deyil ki, araşdırıcı jurnalistlərin ayaması kimi işlədilən «makreykerlər» (*muckrakers – zibileşənlər*) ifadəsinin müəllifi başqası yox, indi ən demokratik ölkə saydığımız ABŞ-ın 26-cı prezidenti Teodor Ruzvelt olmuşdur. İndinin özündə də Amerikada və Avropa ölkələrində jurnalist araşdırması ən işlək formalardandır (1, 179). Jurnalist araşdırması, adətən, ya açılması çətinlik törədən, ya da kiməsə əl verməyən cinayət xarakterli faktlarla da bağlı olur. Azərbaycanın televiziya kanallarında xalis araşdırma proqramlarından, demək olar ki, istifadə edilmir.

Televiziya proqramlarının, hadisələrin mürəkkəblik dərəcəsi prinsipinə görə bölünməsi həm də janrların təsnifatı sahəsindəki hərcmərcliyi aradan qaldıra bilər. Belə ki, bu üç proqram növünün hər birində materialın xarakterindən və müəllifin gerçəkliyə münasibətindən asılı olaraq ənənəvi janrların hamısından, yaxud onların elementlərindən istifadə etmək olar. Belə olan halda ayrı-ayrı janrlar zorən müəyyən

qrupa «təhkim» olunmur, pərçimlənmir, sərbəst hərəkət imkanı qazanaraq lazım olduqları yerdə işlədilir. Digər tərəfdən, əvvəllər bütün janrlar üç müstəqil qrupa bölündüyündən elmi mənbələrdə rast gəldiyimiz «janrlar sistemi» ifadəsində bir dolaşıqlıq duyulmaqda idi. «Televiziya jurnalistikasının janrlar sistemi» dedikdə burada istifadə olunan bütün janrların televiziyanın öz ictimai funksiyasını yerinə yetirmək üçün birləşməsi, kontrapunktu nəzərdə tutulur. Orkestrdəki ayrı-ayrı musiqi alətləri vahid yetkin melodiyanın alınmasına xidmət etdiyi kimi, televiziya jurnalistikasının ayrı-ayrı janrları da vahid funksiyanın (funksiyalar sisteminin) yerinə yetirilməsinə xidmət etməlidir.

Konkret olaraq heç bir qrupa daxil olmayan, məqamından asılı olaraq hər üç qrupda bərabər hüquqla fəaliyyət göstərə biləcək müasir televiziya janrlarını belə sistemləşdirmək olar: *telexəbər, videosüjet, telereportaj, telemüsahibə, telehesabat, teleşərh, teleicmal, telesöhbət.*

Ədəbiyyatdan və kinematoqrafdan gəlmiş janr nəzəriyyəsi indi eyni vaxtda həm sənədliliyi, həm bədiiliyi, həm də improvizasiyanı birləşdirən televiziya sənayesi üçün o qədər də yetərli deyildir. İnformasiya-kommunikasiya texnologiyalarının intensiv inkişafı, başqa KİV-lərlə televiziya arasında rəqabətin get-gedə güclənməsi, insan tələbatının strukturunda baş verən qlobal proseslər və dəyişikliklər televiziya janrları palitrasının durmadan təzələnməsini, vərdiş edilmiş formaların (janrların) «mutasiyasını» (çevik dəyişməsini), köhnə janrların yeni kommunikativ şəraitə uyğunlaşmasını tələb edir.

Telepublisistika janrlarını sözlə təsvirin nisbəti baxımından iki qrupa bölmək mümkündür: 1) Verbal-vizual janrlar; 2) «Taraz» janrlar.

Verbal-vizual janrlar sözün xüsusi çəkisinin görüntüyə nisbətən daha çox olduğu, «taraz» janrlar söz və görüntünün təxminən bərabər nisbətdə bölündüyü janrlardır. Buraya *videoməlumat*, *telereportaj* və *telehesabat* daxildir.

**Videoməlumat.** Hadisə barədə qısa, görüntülü məlumatdır. Mütəxəssislər videosüjetin iki növü olduğunu göstərirlər: 1) rəsmi, formaca ənənəvi olan olay (məsələn, Milli Məclisin iclası, Prezidentin səfəri və s.) haqqında məlumat; 2. Qeyri-rəsmi, qeyri-ənənəvi, əvvəlcədən planlaşdırılmamış hadisə haqqında informasiya. Belə veriliş müvafiq qurumlardan, auditoriyadan gələn siqnallar, ya da jurnalistin şəxsi müşahidəsi, tapıntısı əsasında hazırlanır. Bəzi mənbələrdə bu janr «videosüjet» adlandırılır. Biz isə düşünürük ki, «videosüjet»i janr adı kimi uğurlu hesab etmək olmaz, çünki «süjet» anlayışı materialın təqdimat formasını, başqa sözlə desək, hadisələrin təsvir ardıcıllığını və onun hissələri arasındakı əlaqəni bildirir.

Videoməlumat nə vaxt, harada, nə baş verdiyini, ehtiyac və imkan olduqda hadisənin nə üçün və necə törədiyini tamaşaçılara çatdırır.

**Telereportaj.** Bir çox terminlər kimi, «reportaj» sözünün də etimologiyası latın dilinə gedib çıxır. Bu dildəki «reporto» deyimi «çatdırmaq», «təqdim etmək» mənasını bildirmiş, sonra «reportage» formasında fransız və «report» formasında ingilis dillərinə keçmiş, «bildirmək», «məlumatlandırmaq» anlamını kəsb etmişdir. Bir janr kimi reportaj XX əsrin 30-cu illərində mətbuatda, 40-cı illərində radioda, 50-ci illərində televiziyada formalaşmağa başlamış, reportyor peşəsi meydana gəlmişdir. Qərb jurnalistikasında təkcə reportaj hazırlayanlar deyil, bütün bilgi

janrları ilə məşğul olan jurnalistlərə «reportyor», yəni «məlumat verən» deyilir.

Tarixi təкamül nəticəsində məlum olmuşdur кi, reportajlılıq məhz televiziyanın immanent, yəni təbii, «anadangəlmə» кeyfiyyətidir. Buna görə də, qəzet və radio reportajlarına nisbətən televiziya reportajı daha baxımlı, daha populyardır. İlк iкi halda (qəzetdə və radioda) hadisə haqqında məlumat auditoriyaya yazılı (qəzetdə), yaxud şifahi (radioda) sözlə (radioda həm də səs effeкtləri ilə) çatdırıldığı halda, televiziyada söz-görüntü-səs effeкtləri кontrapunкtu formasında təqdim olunur və buna görə də, daha mötəbər, daha əyani görünür. Bu mötəbərliyi gücləndirən vacib amillərdən biri də tamaşaçıların yaxşı tanıdığı, inandığı reportyorun hadisə yerində baş verənlərə şəxsən şahidliк etməsidir. Beləliкlə, televiziya reportajı hər hansı ictimai əhəmiyyətli hadisə haqqında həmin hadisənin təbii gedişi fonunda operatorun, jurnalistin və rejissorun audiovizual vasitələrlə tamaşaçılara məlumat verməsidir.

**Telehesabat.** Bu janr həm məzmun, həm də formaca reportaja yaxındır. Adətən, dövlət səviyyəli tədbirlərə (Prezidentin кeçirdiyi müşavirələrə, Milli Məclisin iclaslarına və s.), кütləvi aкsiyalara (mitinq, piкet, кüçə yürüşləri və s.), idman yarışlarına həsr olunur. Reportajdan əsas fərqi hadisənin nə vaxt baş verməsi və nə vaxt göstərilməsi ilə bağlıdır. Reportaj ya birbaşa yayımla verilir, ya da bu, mümкün olmayanda lentə yazılıb başqa əlverişli vaxtda canlı yayım üslubunda nümayiş etdirilir. Hesabat isə bir qayda olaraq, hadisənin baş verdiyi vaxtdan xeyli sonra, həm də, əsasən, qısaldılmış formada auditoriyaya çatdırılır. Aydınlıq üçün belə bir misal gətirəк. Azərbaycanın futbol üzrə yığma кomandası hansısa ölкənin milli кomandası ilə görüşür və oyun canlı yayımla tamaşaçılara təqdim olunursa, yaxud oyun vaxt fərqinə görə başqa vaxtda göstərilirsə, bu reportaj, həmin oyun haqqında bir neçə saatdan, yaxud bir neçə gündən sonra yarışın ən maraqlı məqamları haqqında məlumat verilirsə, bu, hesabatdır. Reportajdan fərqli olaraq hesabatda hadisənin ilк baxışda görünməyən, «pərdə arxasında» baş verən tərəflərinə daha çox diqqət yetirilir, səbəb-nəticə əlaqələri araşdırılır.

## ƏDƏBİYYAT

### I. Azərbaycan dilində

1. Bəşirli A., Кərimova A., Vəкilova D. Xəbərçiliк. Xəbərin toplanması və dərsliк yazılması. Baкı: Osкar, 2007, 196 s.
2. Repкova T. «Yeni dönəm»: demoкratiк cəmiyyətdə peşəкar qəzet buraxmaq yolları. Baкı: Qanun, 2006, 444 s.


### II. Rus dilində

3. Жанры советской газеты. М.: Высшая школа, 1972, 424 с.
4. Прохоров Е.П. Искусство публицистики. М.: Советский писатель, 1984, 360 с.
5. Смирнов В.В. Жанры радиожурналистики. М.: Аспект Пресс, 2002, 288 с.
6. Телевизионная журналистика. М.: Высшая школа, 2002, 304 с.
7. Тертычный А.А. Жанры периодической печати. М.: Аспект Пресс, 2002, 320 с.
8. Ученова В.В. У истоков публицистики. М.: 1989, 212 с.
9. Черепахов М.С. Жанры публицистики и их особенности // Жанры советской газеты. М.: Высшая школа, 1972, с. 3-21.

**III. İnternet saytı**

10. WWW.rambler.ru / ЕВАРТИСТ

## ПОНЯТИЕ И СИСТЕМА ТЕЛЕВИЗИОННЫХ ЖАНРОВ

**А.А.ГАСАНОВА**

**РЕЗЮМЕ**

И в искусствоведении, и в литературоведении, и в медиалогии жанр – одно из сложнейших понятий, и по этой причине по сей день отсутствует его общепринятая дефиниция. Не исчерпан также вопрос о классификации жанров. В предлагаемой статье предпринята попытка раскрыть суть понятия телевизионных жанров и определить их систему. Говоря о «телевизионных жанрах» имеется в виду формы демонстрации телезрителям всех программ реальных фактов, взятых из жизни и известия о происшествиях. В статье показаны классификации телевизионных жанров советских времен, а также современного телевидения. Автор систематизировал такие современные телевизионные жанры как теленовость, видеоизвестия, телерепортаж, телеинтервью, телеотчет, телекомментарий, телеобзор, телебеседа и показал в отдельности их отличительные черты.

## CONCEPTION AND SYSTEM OF TV GENRES

**A.A.HASANOVA**

**SUMMARY**

In art study as well as in literary criticism and medialogy a genre is one of the most complex conceptions. That is why, its generally accepted definition has not been determined yet. The issue of genre classification has not been completed either. In this article the author tries to disclose the essence of the conception of TV genres and define their system. The expression of "TV genres" intends demonstration forms of all telecasts, real facts of life, and event news for the audience. Classification of TV genres of Soviet times as well as nowadays is viewed in the article. The author systematized the present TV genres such as telenews, video-news, telereporting, teleinterview, telecommentary, telereview, teleconversation and showed their distinctive features separately.